AccessBank

# KART HESABININ AÇILMASI, ÖDƏNİŞ KARTININ EMİSSİYASI VƏ ÖDƏNİŞ KARTINA DAİR XİDMƏTLƏRİN GÖSTƏRİLMƏSİ HAQQINDA MÜQAVİLƏNİN

# STANDART ŞƏRTLƏRİ

*19 sentyabr 2018-ci il tarixdən etibarlıdır.*

## 1. ANLAYIŞLAR

1.1. Müqavilədə istifadə olunan anlayışlar aşağıdakı mənaları daşıyır:

1.1.1. **Avtorizasiya** – kartdan istifadə edilməklə əməliyyatların aparılması üçün emitentdən və ya onun xidmət olunduğu kart təşkilatından icazənin alınması;

1.1.2. **Bank** – AccessBank Qapalı Səhmdar Cəmiyyəti (VÖEN - 1400057421);

1.1.3. **Bankomat** – ödənişlərin aparılması, nağd pul vəsaitinin verilməsi və qəbulu, habelə digər bank xidmətlərindən istifadə edilməsi üçün üçün nəzərdə tutulmuş proqram-texniki kompleks;

1.1.4. **Emitent** – kartların emissiyasını həyata keçirən, kart istifadəçilərinə xidmət göstərilməsini, kart əməliyyatlarının avtorizasiyasını (özü və ya kart təşkilatı tərəfindən) və aparılmış əməliyyatların dəyərinin ekvayerə ödənilməsini təmin edən Bank;

1.1.5. **Ekvayer** – ekvayrinq xidmətini həyata keçirən hüquqi şəxs;

1.1.6. **Ekvayrinq** – təsərrüfat subyekti və ya dövlət orqanı ilə bağlanmış müqavilə əsasında müvafiq olaraq ticarət, məişət və digər növ xidmətlərin göstərilməsi zamanı müştərilərlə hesablaşmaların aparılması və ya vergilərin və dövlət orqanları tərəfindən göstərilən xidmətlərə (işlərə) görə dövlət rüsumlarının və haqların ödənilməsi və ya kart istifadəçisinə nağd pul vəsaitinin verilməsi üzrə göstərilən xidmət;

1.1.7. **Əməliyyatların reyestri** – Bankın kart təşkilatından aldığı və müəyyən müddət ərzində kartlardan istifadə etməklə aparılan əməliyyatlar haqqında məlumatları əks etdirən sənəd;

1.1.8. **Əməliyyat tarixi** – Kartdan istifadə etməklə kart hesabı üzərində sərəncam verildiyi tarix;

1.1.9. **Əməliyyatın işlənmə tarixi** – Bankın kart təşkilatından aldığı və müəyyən müddət ərzində kartdan istifadə etməklə aparılan əməliyyatların Bankın sistemində işlənilməsi tarixi;

1.1.10. **Əlavə kart** –Kartla ümumi bank hesabına malik olan kart;

1.1.11. **Hesabdan çıxarış** – Kart istifadəçisi tərəfindən Kartdan istifadə etməklə aparılmış əməliyyatlar barədə hesabat;

1.1.12. **Kart hesabı** – kart vasitəsilə həyata keçirilən əməliyyatların uçotunun aparılması üçün Bankda açılan cari bank hesabı;

1.1.13. **Kart hesabının sahibi (bundan sonra - kart sahibi)** – Emitentlə müqavilə bağlayan, kart hesabı üzrə sərəncam vermək hüququ olan Müştəri;

1.1.14. **Kart istifadəçisi** – kart sahibi olan Müştəri, kartdan və ya əlavə kartdan istifadə etmək hüququ olan fiziki şəxs(lər);

1.1.15. **Kart təşkilatı** - kartlar vasitəsilə aparılmış əməliyyatlar haqqında məlumatların ötürülməsi, toplanması, emalı və klirinqi, həmçinin kartların emissiyasına və ekvayrinqinə texniki xidmət göstərilməsini həyata keçirən xidmət mərkəzi (prosessinq fəaliyyətini həyata keçirən banklar və digər hüquqi şəxslər) və ya beynəlxalq kart təşkilatı;

1.1.16. **Kartın bloklaşdırılması** – kart vasitəsilə əməliyyatların həyata keçirilməsinin dayandırılması;

1.1.17. **Kartların emissiyası** (bundan sonra - "emissiya") – emitent tərəfindən kartların dövriyyəyə buraxılması;

1.1.18. **Müştəri** – Bankla "Kart hesabının açılması, ödəniş kartının emissiyası və ödəniş kartına dair xidmətlərin göstərilməsi haqqında" Müqaviləni imzalamış şəxs;

1.1.19. **Müqavilə** - Bankla Müştəri arasında bağlanmış "Kart hesabının açılması, ödəniş kartının emissiyası və ödəniş kartına dair xidmətlərin göstərilməsi haqqında" Müqavilə;

1.1.20. **Overdraft** – kart hesabında olan pul vəsaiti kartdan istifadə etməklə aparılan əməliyyatlar üçün kifayət etmədikdə, həmin əməliyyatlar üçün tələb olunan pulun çatışmayan hissəsinin Bank tərəfindən ödənilməsi;

1.1.21. **Ödəniş kartı (bundan sonra - kart)** – Müqavilədə nəzərdə tutulmuş nağdsız ödənişlərin aparılması və nağd pul vəsaitinin əldə edilməsi üçün istifadə edilən ödəniş aləti;

1.1.22. **POS-Terminal** – kart vasitəsilə əməliyyatların aparılması, habelə nağd pul vəsaitinin alınması üçün nəzərdə tutulmuş avadanlıq;

1.1.23. **Skimminq** – kartın maqnit lentində əks olunan məlumatların köçürülməsi məqsədilə qanunsuz kart oxuyucusunun ödəniş terminalına quraşdırılması və məlumatların oxunması.

1.1.24. **Standart şərtlər** - Müqavilənin hazırkı standart şərtləri;

1.1.25. **Stop-list** – əməliyyatların aparılması qadağan edilmiş kartların siyahısı;

1.1.26. **Şəxsi eyniləşdirmə nömrəsi** (bundan sonra PİN-kod) – Bank tərəfindən Müştəriyə və ya Müştəri tərəfindən vəkil edilmiş şəxsə təqdim edilən və kartla əməliyyatların həyata keçirilməsi zamanı kart istifadəçisinin tanınmasında istifadə olunan gizli şifrə;

1.1.27. **Şifrə Sözü** – yalnız Kart sahibinə və Banka məlum olan gizli söz;

1.1.28. **Texniki (icazə verilməmiş) overdraft** – Tərəflər arasında overdraftın təqdim edilməsi barədə razılaşma olmadığı halda, Kart istifadəçisi tərəfindən kart vasitəsilə kart hesabında olan vəsaitdən artıq məbləğdə əməliyyatların aparılması;

1.1.29. **Tərəf** – Bank və Müştəri ayrılıqda;

1.1.30. **Tərərflər** - Bank və Müştəri birlikdə;

1.1.31. **Təsərrüfat subyekti** - ekvayerlə bağlanmış müqavilə əsasında müvafiq olaraq ticarət, məişət və digər növ xidmətlərin göstərilməsi zamanı müştərilərlə hesablaşmaların aparılması üçün kartları ödəniş vasitəsi kimi qəbul edən şəxs;

## 2. KART ÜZRƏ HESABLAŞMALARIN APARILMASI

2.1. Kart vasitəsilə bir qayda olaraq kart hesabında olan pul vəsaitinin məbləği həddində ödəniş edilə bilər.

2.2. Overdraft nəticəsində borc yarandıqda Bank Müştəriyə bu barədə məlumat verir və Müştəri həmin borcun 3 (üç) iş günü ərzində Banka geri qaytarılmasını təmin etməlidir.

2.3. Overdraft nəticəsində yaranmış borc Standart şərtlərin 2.2-ci bəndində nəzərdə tutulmuş müddətdə Banka qaytarılmadıqda, borc üzrə Bank tərəfindən Müştəriyə illik 25 (iyirmi beş) faiz dərəcəsi ilə faizlər hesablana bilər. Bu halda Müştəri borcu hesablanmış faizlərlə birlikdə ən geci 30 (otuz) təqvim günü ərzində Banka ödəməlidir. Faizlərin hesablanması borc tam ödənilən günə qədər davam edir.

2.4. Overdraft nəticəsində yaranmış borc və həmin borca hesablanmış faizlər Standart şərtlərin 2.3-cü bəndində nəzərdə tutulmuş müddətdə Banka qaytarılmadıqda, Bank tərəfindən Müştəriyə borcun qalıq məbləğinin 36 (otuz altı) faizi miqdarında illik dəbbə pulu hesablana bilər.

2.5. Overdraft nəticəsində yaranmış borc məbləği və faizlər ödənilənə qədər Bank kartı bloklaşdıra bilər və bununla əlaqədar Bankın çəkdiyi və ya çəkməli olduğu bütün xərclər beynəlxalq ödəniş sistemlərində tətbiq olunan tariflərə uyğun olaraq Müştəri tərəfindən ödənilir.

2.6. Kart hesabı üzrə aparılan əməliyyatlar üzrə pul vəsaiti əməliyyatların reyestri Banka daxil olduqdan sonra növbəti iş günündən gec olmayaraq kart hesabından silinir.

2.7. Azərbaycan Respublikasının ərazisində kart hesabı üzrə aparılan bütün əməliyyatlar Azərbaycan manatı ilə həyata keçirilir. Azərbaycan Respublikasının qanunvericiliyinin tələblərinə riayət etməklə kart vasitəsilə xarici valyutada da əməliyyatlar aparıla bilər.

2.8. Kart hesabının valyutasından fərqli valyutada əməliyyatın məbləği kartın növündən asılı olaraq VISA və ya MasterCard beynəlxalq ödəniş sistemlərinin mübadilə məzənnəsi nəzərə alınmaqla kart hesabından əməliyyatın məbləğinin silindiyi tarixə Bankın müəyyən etdiyi mübadilə məzənnəsinə uyğun olaraq kart hesabının valyutasına konvertasiya edilir.

2.9. Beynəlxalq əməliyyatların məbləği kartın növündən asılı olaraq VISA və ya MasterCard beynəlxalq ödəniş sistemləri ilə hesablaşmalar üçün istifadə edilən valyutaya, daha sonra isə kart hesabının valyutasına konvertasiya edilir.

2.10. Banka məxsus olmayan bankomat və ya digər elektron qurğular vasitəsilə kart hesabı üzrə əməliyyatlar aparıldıqda, Bankın xidmət haqqına əlavə olaraq, kart hesabından həmin bankomat və ya digər elektron qurğuların məxsus olduğu digər bankın xidmət haqqı tutula bilər.

2.11. Kart hesabının valyutasından fərqli valyutada əməliyyatlar aparıldıqda, əməliyyat tarixinin mübadilə məzənnəsi əməliyyatın işləndiyi tarixin mübadilə məzənnəsindən fərqli ola bilər. Məzənnə fərqinə görə yaranmış borc Müştəri tərəfindən mübahisələndirilə bilməz və həmin borc kart hesabından Bankın xeyrinə tutulur.

2.12. Standart şərtlərin 2.11-ci bəndinə əsasən məzənnə fərqi üzrə borc yarandıqda Bank Müştəriyə bu barədə məlumat verir və Müştəri həmin borcun 3 (üç) iş günü ərzində Banka geri qaytarılmasını təmin etməlidir.

2.13. Məzənnə fərqi üzrə yaranmış borc Standart şərtlərin 2.12-ci bəndində nəzərdə tutulmuş müddətdə Banka qaytarılmadıqda, Bank tərəfindən Müştəriyə borcun qalıq məbləğinin 36 (otuz altı) faizi miqdarında illik dəbbə pulu hesablana bilər.

## 3. TƏRƏFLƏRİN HÜQUQ VƏ VƏZİFƏLƏRİ

3.1. ***Bankın hüquqları:***

3.1.1. Kart hesabının açılması və kartın emissiyası üçün Müştəridən bütün zəruri sənədləri və xidmət haqqını almaq;

3.1.2. Müştərinin istənilən öhdəlik üzrə Banka yaranmış borc məbləğini, o cümlədən xidmət haqqını və bank hesablarına səhvən mədaxil edilmiş məbləğləri Müştərinin sərəncamı olmadan onun Bankda olan istənilən bank hesabından öz xeyrinə silmək;

3.1.3. Kartdan qeyri-qanuni istifadənin qarşısı alınması, kartın bloklaşdırılması və ləğv edilməsi üçün Bank tərəfindən çəkilmiş xərclərin Müştərinin sərəncamı olmadan onun Bankda olan istənilən bank hesabından öz xeyrinə silmək;

3.1.4. Emissiya edildikdən sonra 60 (altmış) təqvim günü ərzində kart Müştəri tərəfindən təhvil alınmadıqda həmin kartı və kart hesabını ləğv etmək;

3.1.5. Müqavilədə nəzərdə tutulmuş qaydada Müştərini xəbərdar etməklə tarifləri birtərəfli qaydada dəyişdirmək;

3.1.6. Öncədən məlumat verməklə, kart vasitəsi ilə əməliyyatların aparılması üçün limitlər təyin etmək;

3.1.7. Müştəri Müqavilənin şərtlərinə əməl etmədikdə, Müqaviləni və onun əsasında verilmiş bütün kartları ləğv etmək;

3.1.8. Kart istifadəçisi tərəfindən PİN-kod ardıcıl olaraq 3 (üç) dəfə səhv daxil edildikdə, Müştərinin yazılı müraciətinə və dövlət orqanlarının qanunvericiliyə uyğun tələblərinə əsasən Bankın mövcud tariflərinə uyğun olaraq xidmət haqqını tutmaqla, Müştərini əvvəlcədən xəbərdar etmədən kartı bloklaşdırmaq;

3.1.9. Standart şərtlərin 2.11-ci bəndinə əsasən məzənnə fərqinə görə yaranmış borcun, 2.3-cü bəndinə əsasən hesablanmış faizlərin və 2.4-cü və 2.13-cü bəndlərinə əsasən hesablanmış dəbbə pulunun ödənilməsini Müştəridən tələb etmək.

3.2. ***Bankın vəzifələri:***

3.1.1. Kart istifadəçisinin kartdan və PİN-koddan istifadə qaydaları ilə tanış edilməsi;

3.1.2. Müştəri sifariş ərizəsini imzaladıqdan, tələb olunan sənədləri təqdim etdikdən və xidmət haqqını ödədikdən sonra ona kart hesabının açılması, 10 (on) iş günü ərzində kartın, əlavə kart(lar)ın və içərisində PİN-kod olan müvafiq sayda qapalı zərfin Müştəriyə və ya onun nümayəndəsinə təhvil verilməsi;

3.1.3. Kart üzrə hesablaşmaların təmin edilməsi;

3.1.4. Bank sirrinin qorunması və qanunvericilikdə nəzərdə tutulmuş hallar istisna olmaqla, onların üçüncü şəxslərə açıqlanmaması;

3.1.5. Müştərinin müraciəti olduqda kartın müvəqqəti bloklaşdırılması;

3.1.6. Kartdan istifadə və bununla əlaqədar Müştərinin şikayət və müraciətləri yazılı şəkildə Banka daxil olduqdan sonra 60 (altmış) iş günü ərzində onların cavablandırılması;

3.1.7. Müştəri müraciət etdikdə ən geci 2 (iki) iş günü ərzində kart hesabı üzrə pul vəsaitinin hərəkəti və kart hesabında olan qalıq məbləğ haqqında ona çıxarış verilməsi;

3.1.8. Kartın itirilməsi, oğurlanması və ya Müştərinin iradəsinə zidd olaraq digər vasitələrlə onun və ya kart istifadəçisinin sahibliyindən çıxması barədə Müştəri tərəfindən xəbərdar olunduqdan dərhal sonra kartı bloklaşdırmaq;

3.1.9. Müqavilə üzrə yeni tarifləri qüvvəyə minməmişdən əvvəl onların http://www.accessbank.az/ internet səhifəsində yerləşdirilməsi və ya Müştəriyə Müqavilə ilə nəzərdə tutulmuş digər qaydada məlumat verilməsi;

3.1.10. Qanunvericilikdə nəzərdə tutulmuş hallar istisna olmaqla kartın bloklaşdırılması və ya ona xidmət göstərilməsinin dayandırılması barədə Müştərinin məlumatlandırılması;

3.1.11. Müqavilənin müddəti bitdikdən və ya o ləğv edildikdən sonra 30 (otuz) iş günü ərzində Kart hesabında olan vəsaitin qalığının, zəruri xərclər və yaranmış borclar çıxıldıqdan və Müqaviləyə əsasən emissiya edilmiş bütün kartlar Banka qaytarıldıqdan sonra Müştəriyə qaytarılması.

3.2. ***Müştərinin hüquqları:***

3.2.1. Müqavilədə nəzərdə tutulmuş qaydada kartdan istifadə etməklə aşağıdakı əməliyyatları aparmaq:

3.2.2. Mal, iş və xidmətlərin dəyərinin ödənilməsi;

3.2.3. Vergi, rüsum, habelə dövlət büdcəsinə və büdcədənkənar dövlət fondlarına icbari ödənişlərin aparılması;

3.2.4. Valyuta mübadiləsinin aparılması;

3.2.5. Nağd pul vəsaitinin alınması;

3.2.6. Qanunvericiliyə zidd olmayan və işgüzar dövriyədə tətbiq olunan digər əməliyyatlar.

3.2.7. Bankdan istənilən dövr üçün kart hesabından çıxarış tələb etmək;

3.2.8. Kartın istifadə müddəti bitdikdə, o itirildikdə və ya oğurlandıqda, zədələndikdə, Müştərinin adında dəyişiklik olduqda yeni kart üçün Banka müraciət etmək (Bu halda kartın itirilməsi və ya oğurlanması halı istisna olmaqla kart Banka qaytarılır və Bank tərəfindən bloklaşdırılır);

3.2.9. Mübahisəli əməliyyatlar barədə əməliyyat tarixindən sonra 45 (qırx beş) gün ərzində Banka pretenziyasını yazılı şəkildə bildirmək. Bu müddət ərzində yazılı pretenziya bildirilmədikdə, həmin əməliyyatların düzgünlüyü təsdiq olunmuş hesab edilir;

3.2.10. Əlavə kartın emissiya edilməsi üçün Banka sifariş ərizəsi ilə müraciət etmək. Bütün əlavə kartlardan istifadə etməklə aparılmış əməliyyatlara görə məsuliyyəti Kart hesabının sahibi daşıyır;

3.2.11. Banka yazılı qaydada müraciət etməklə kart istifadəçisini kartdan istifadə etməklə kart hesabı üzərində sərəncam vermək hüququndan məhrum etmək;

3.2.12. Yeni tariflərlə və Standart Şərtlərə dəyişikliklərlə razılaşmadıqda 3 (üç) təqvim günü əvvəldən Bankı xəbərdar etməklə Müqaviləni birtərəfli qaydada ləğv etmək.

3.3. ***Müştərinin vəzifələri:***

3.3.1. Kart hesabının açılması və kartın, əlavə kart(lar)ın emissiyası üçün Bankın tələb etdiyi sənədlərin təqdim edilməsi;
3.3.2. Müqavilənin şərtlərinə əməl edilməsi;
3.3.3. Kartdan istifadə ilə bağlı yaranan borcun, həmçinin faiz və dəbbə pulunun Banka ödənilməsi;
3.3.4. Texniki overdraft nəticəsində yaranmış borcun 3 (üç) iş günü ərzində Banka ödənilməsi;
3.3.5. Xidmət haqqının Banka vaxtında ödənilməsi;
3.3.6. Kart istifadəçisinin məlumatlarının Banka vaxtında və düzgün təqdim edilməsi;
3.3.7. Təqdim edilmiş məlumatlarında dəyişiklik olduqda, bu barədə təsdiqedici sənədləri də əlavə etməklə dərhal Banka yazılı məlumat verilməsi;
3.3.8. Kartdan qanunsuz istifadənin qarşısını almaq üçün təsdiqedici sənədlərə əsasən Bankın çəkdiyi xərclərin əvəzinin ödənilməsi;
3.3.9. Kartın itirilməsi, oğurlanması və ya Müştərinin iradəsinə zidd olaraq digər vasitələrlə onun və ya kart istifadəçisinin sahibliyindən çıxması halları olduqda Bankın 24 (iyirmi dörd) saat ərzində Müqavilədə nəzərdə tutulmuş qaydada məlumatlandırılması;
3.3.10. Kart hesabının kartdan istifadə etməklə aparılan əməliyyatlar üçün kifayət qədər pul vəsaiti ilə təmin edilməsi;

## 4. TƏRƏFLƏRİN MƏSULİYYƏTİ

4.1. Müqavilədən irəli gələn öhdəliklərin pozulması və ya lazımi qaydada yerinə yetirilməməsinə görə tərəflər Azərbaycan Respublikasının qanunvericiliyinə və Müqaviləyə əsasən məsuliyyət daşıyırlar və digər Tərəfə dəymiş ziyanı tam qarşılamalıdırlar.
4.2. Tərəflər onlardan asılı olmayan səbəbdən Müqavilə üzrə öhdəliklərini yerinə yetirməməyə görə və ya lazımi qaydada yerinə yetirməməyə görə məsuliyyət daşımırlar.
4.3. Müştəri tərəfindən Kart istifadəçisinin məlumatlarının Banka yanlış təqdim edilməsi üçün Müştəri məsuliyyət daşıyır.
4.4. Müştəri tərəfindən Stop-listə daxil edilməsi üçün müraciət edilməmiş və ya vaxtında müraciət edilməmiş, itirilmiş, oğurlanmış Kartdan istifadə etməklə aparılmış əməliyyatlara görə Müştəri özü məsuliyyət daşıyır.
4.5. Kartın itirildiyi, oğurlandığı və ya Müştərinin iradəsinə zidd olaraq digər vasitələrlə onun və ya kart istifadəçisinin sahibliyindən çıxdığı andan bu barədə yazılı məlumatın Müştəri tərəfindən Banka verilməsinə qədər olan müddətdə kartdan istifadə etməklə aparılmış əməliyyatlara görə Bank məsuliyyət daşımır.
4.6. Bank itirilmiş və ya oğurlanmış kart Stop-listə daxil edildikdən sonra həmin kartdan istifadə etməklə aparılmış əməliyyatlara görə məsuliyyət daşıyır.
4.7. Müştərinin Müqavilənin şərtlərini yerinə yetirməməsi nəticəsində yaranmış mübahisəli hallarda Bank məsuliyyət daşımır.
4.8. Bank skimminqə görə məsuliyyət daşımır.

4.9. Kartdan istifadə etməklə əməliyyatların aparılmasında yaranmış hər hansı problem Bankın nəzarət sahəsindən kənarda olan və onun sərəncamında olmayan (digər şəxslərin idarə etdiyi) məlumat-informasiya sistemlərinin fəaliyyəti və həmin sistemlərdə yaranan texniki nasazlıqlar ilə əlaqəlidirsə, Bank bu problemlərə görə Müştəri qarşısında məsuliyyət daşımır. Bu əsasla mübahisə yarandıqda kartdan istifadə etməklə əməliyyatların aparılmasında yaranmış problemin Bankın nəzarət sahəsində olan fəaliyyətlə əlaqəli olduğu Müştəri tərəfindən sübut edilməyənə qədər, həmin problemə görə Bankın məsuliyyəti istisna olunur.

4.10. Digər bank və təşkilatların kart istifadəçisinə kartdan istifadə etməklə əməliyyatların aparılmasından imtina etməsinə görə Bank məsuliyyət daşımır.

## 5. FORS-MAJOR

5.1. Tərəflərin iradəsindən asılı olmayan, qabaqcadan nəzərdə tutulması və məntiqə uyğun ehtiyatlılıq şəraitində dəf edilməsi mümkün olmayan qarşısıalınmaz qüvvə (fors-major), yəni konkret dövrün konkret şərtlərində fövqalədə və aradan qaldırıla bilməyən hallarda (epidemiya, epizotiya, sel, zəlzələ, yanğın, daşqın və digər təbii fəlakətlər, elan olunmuş və ya faktiki müharibə, mühasirə, fövqəladə hallar, kütləvi iğtişaşlar, tətil, habelə hökumətin və ya yerli özünüidarəetmə orqanlarının Müqavilənin icrasının mümkünsüzlüyünə səbəb olan hərəkətləri və ya qərarları və sair bu kimi hadisələr) baş verdiyi təqdirdə tərəflər üzərinə götürdükləri öhdəliklərin yerinə yetirilməməsinə görə məsuliyyət daşımırlar.

5.2. Standart şərtlərin 5.1-ci bəndində göstərilmiş hallar baş verdikdə Tərəflərin öhdəliklərinin icrası müddəti qarşısıalınmaz qüvvə hallarının təsir göstərdiyi müddətdə uzadılır.

5.3. Müqavilə üzrə öhdəliklərini fors-major halları səbəbindən yerinə yetirə bilməyən Tərəf digər Tərəfi fors-major hallarının başlanması, ehtimal edilən qüvvədə olma müddəti və bitməsi haqqında dərhal yazılı surətdə xəbərdar etməlidir. Tərəflərdən heç biri Müqavilə üzrə öhdəliklərinin fors-major şəraiti nəticəsində yerinə yetirilməməsinə görə məsuliyyət daşımır, bu şərtlə ki, həmin Tərəf digər Tərəfə fors-major şəraitinin yarandığı gündən sonra 3 (üç) təqvim günü ərzində fors-major şəraitinin yaranması və Müqavilə üzrə öhdəliklərinin yerinə yetirilməsinə təsiri barədə yazılı bildiriş göndərsin.

5.4. Fors-major halları və ya onların nəticələrinin təsiri 30 (otuz) təqvim günündən artıq davam etdiyi təqdirdə, Tərəflərin hər biri Müqavilə üzrə qarşılıqlı hesablaşmaların aparmaq şərti ilə Müqaviləni ləğv edə bilər.

## 6. MƏXFİLİK

6.1. Müqavilənin şərtləri və icra olunması ilə bağlı Tərəflərə məlum olan bank sirri təşkil edən, həmçinin kommersiya və digər konfidensial məlumatların qarşı tərəfin yazılı razılığı olmadan, qanunvericilikdə nəzərdə tutulmuş qaydadan kənar formada üçüncü şəxslər qarşısında bilavasitə və ya dolayı yolla açıqlanması Azərbaycan Respublikasının qanunvericiliyinə və Müqaviləyə uyğun olaraq məsuliyyətə səbəb olur.

6.2. Müqavilənin müddətinin başa çatması və ya onun ləğv edilməsi, o cümlədən birtərəfli qaydada ləğv edilməsi Standart şərtlərin 6.1-ci bəndində göstərilən öhdəliyin qüvvədə qalmasına təsir etmir.

## 7. MÜBAHİSƏLƏRİN HƏLLİ

7.1. Tərəflər arasında Müqavilənin icrasından irəli gələn bütün mübahisələr, o cümlədən Müqavilənin ləğvi ilə bağlı mübahisələr qarşılıqlı razılaşma yolu ilə həll olunur.

7.2. Müqavilədən irəli gələn və ya ona aid olan mübahisələr 30 (otuz) iş günü müddətində danışıqlar yolu ilə həll olunmadıqda Azərbaycan Respublikasının qanunvericiliyi əsasında məhkəmə qaydasında həll edilir.

## 8. MÜQAVİLƏNİN MÜDDƏTİ VƏ LƏĞV EDİLMƏSİ

8.1. Müqavilə hər iki Tərəfdən imzalandığı andan qüvvəyə minir və Müqavilə üzrə verilmiş sonuncu kartın istifadə müddəti bitənədək etibarlıdır.

8.2. Müştəri Kartın istifadə müddətinin bitməsinə ən gec 15 (on beş) iş günü qalmış Kartın yeni müddətə emissiyası üçün Banka ərizə ilə müraciət etdikdə, Müqavilənin müddəti yeni kartın istifadə müddətinin sonuna kimi uzadılır.

8.3. Müqavilə Tərəflərin qarşılıqlı razılığı ilə vaxtından əvvəl ləğv edilə bilər.

8.4. Tərəflərdən hər biri 30 (otuz) təqvim günü əvvəldən bildiriş təqdim etməklə, qarşılıqlı hesablaşmaların aparılması şərti ilə Müqaviləni vaxtından ləğv edə bilər.

8.5. Müqavilənin müddətinin bitməsi və ya ləğv edilməsi Tərəfləri müvafiq tarixə qədər yaranmış öhdəliklərinin icrasından azad etmir.

8.6. Tərəflərdən birinin təşəbbüsü ilə Müqavilənin ləğv edilməsi Müqaviləyə əsasən açılmış kart hesabı və emissiya edilmiş kartların ləğvi üçün əsasdır.

8.7. Müqaviləyə əsasən açılmış Kart hesabında 6 (altı) ay ərzində pul vəsaiti olmadıqda və ya Standart şərtlərin 3.1.4-cü yarımbəndinə uyğun olaraq bütün kartlar ləğv edildikdə Bank birtərəfli qaydada Müqaviləni ləğv edə bilər.

## 9. YEKUN MÜDDƏALAR

9.1. Əmanət üzrə sığorta haqlarının və kompensasiyanın ödənilməsi şərtləri, Əmanətlərin Sığortalanması Fondunun fəaliyyəti ilə bağlı elanların verildiyi və bildirişlərin dərc edildiyi kütləvi informasiya vasitələri haqqında məlumat Standart şərtlərə Əlavə №1-də göstərilmişdir.

9.2. Kartlardan istifadə qaydaları Standart şərtlərə Əlavə № 2-də göstərilmişdir.

9.3. Müqavilə, Standart şərtlər, Standart şərtlərə Əlavə №1 və Əlavə №2 Müştəri ilə Bank arasında tam müqavilə hesab olunur.

9.4. Müqavilənin hər hansı bir hissəsinin etibarsızlığı bütövlükdə Müqavilənin etibarsızlığına səbəb olmur.

9.5. Müqavilənin 4-cü bəndində göstərilən ünvan və ya rekvizitlərində hər hansı dəyişiklik baş vermiş Tərəf bu barədə digər Tərəfi dəyişiklik baş verdikdən sonra 3 (üç) təqvim günü müddətində yazılı şəkildə xəbərdar etməlidir.

9.6. Müqavilə tərəflərin hər birində 1 (bir) nüsxə saxlanılmaqla eyni hüquqi qüvvəyə malik 2 (iki) nüsxədə tərtib edilmişdir.

***Standart şərtlərə Əlavə №1:***

## ƏMANƏTLƏRİN SIĞORTALANMASI HAQQINDA MƏLUMAT

"Əmanətlərin sığortalanması haqqında" Azərbaycan Respublikasının Qanununun (http://www.e-qanun.az/framework/12137 ) 30-cu maddəsinə əsasən Bank cəlb etdiyi əmanət üzrə sığorta haqlarının və kompensasiyanın ödənilməsi şərtləri, Əmanətlərin Sığortalanması Fondunun (bundan sonra «Fond») fəaliyyəti ilə bağlı elanların verildiyi və bildirişlərin dərc edildiyi kütləvi informasiya vasitələri haqqında məlumatı aşağıda Müştərinin diqqətinə çatdırır:

**1.1.** Bank «30» iyul 2007-ci il tarixindən Fondun iştirakçısı olaraq (4 saylı Şəhadətnamə) Fonda sığorta haqqı ödəyir (bu haqq Müştəridən tutulmur).

**1.2.** Bank tərəfindən Müştəridən bütün müvafiq valyutalarda qəbul edilmiş əmanətlər Fond tərəfindən aşağıdakı qaydada sığortalanır:

**1.2.1.** 02.03.2016-cı il tarixdən etibarən faizləri Fondun Himayəçilik Şurası tərəfindən əmanətlər üzrə müəyyən edilmiş illik faiz dərəcəsi həddində (hal-hazırda bu həd milli valyutada 15% və xarici valyutada 3% təşkil edir) olan bütün qorunan əmanətlər məbləğindən asılı olmayaraq 3 (üç) il müddətində tam sığortalanır. Sığorta hadisəsi baş verdikdə, Fond tərəfindən Bankda sığortalanmış əmanət üzrə əmanətin 100 faizi həcmində kompensasiya ödənilir.

**1.2.2.** Yuxarıda 1.2.1-ci bəndi ilə müəyyən edilmiş müddət bitdikdən sonra tam sığortalanmış əmanətlər üzrə əmanətin 100 faizi həcmində, lakin 30 000 (otuz min) manatdan çox olmamaq şərtilə kompensasiya ödənilir.

**1.3.** Sığorta hadisəsi - Bankın məcburi ləğvi və ya müflis elan olunması, Bankın Müştəri qarşısında əmanət üzrə öhdəliklərinin yerinə yetirilməsinə məhkəmə tərəfindən moratorium tətbiq edilməsi barədə məhkəmə qərarının qüvvəyə minməsi və Bankın Müştəri qarşısında öz öhdəliklərini yerinə yetirə bilməməsi faktının Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən təsdiq edilməsidir.

**1.4.** Sığorta hadisəsi baş verdikdə, Fond aşağıdakı kütləvi informasiya vasitəsilərində Müştəriyə kompensasiya ödənilməsi yeri və vaxtı haqqında elan verir: AzTV; İctimai TV; Azərbaycan qəzeti; Respublika qəzeti; Xalq qəzeti; AzərTAc informasiya agentliyi; APA informasiya agentliyi.

**1.5.** Fonddan kompensasiya almaq üçün Müştəri kütləvi informasiya vasitəsilərində göstərilən yerə yazılı ərizə ilə müraciət edir. Ərizəyə aşağıdakı sənədlər əlavə olunur: 1.Şəxsiyyət vəsiqəsi və ya şəxsiyyəti təsdiqləyən digər sənəd; 2. Əmanəti təsdiqləyən sənəd (müvafiq mədaxil qəbzi və ya müfaviq ödəniş tapşırığı, hesabdan çıxarış və s.); 3. Bank əmanəti müqaviləsi.

**1.6.** Ərizəni verildiyi tarixdən etibarən 90 (doxsan) gün müddətində Fond tərəfindən Müştəriyə kompensasiya ödənilməlidir. Müştərinin kompensasiya almaq hüququ istisna hallarda Fondun kompensasiyaların ödənilməsi haqqında elanı ilk dəfə dərc etdiyi gündən 5 (beş) il müddətində saxlanılır.

**1.7.** Aşağıdakı əmanətlər qorunan əmanətlərə aid edilmir:

a) Bankın Azərbaycan Respublikasının ərazisindən kənarda açılmış bölmələri tərəfindən cəlb olunmuş əmanətlər;

b) qeyri-qanuni yolla əldə edilmiş pul vəsaitinin leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə bağlı şübhəli əməliyyatlar nəticəsində qanunvericiliyə müvafiq qaydada müəyyən edilmiş əmanətlər;

c) cinayətin törədilməsi nəticəsində yaranması məhkəmə qərarı ilə təsdiq edilmiş əmanətlər;

d) üzərinə həbs qoyulmuş əmanətlər;

e) cəlb edildiyi günə Fondun Himayəçilik Şurası tərəfindən müəyyən edilmiş qorunan əmanətlər üzrə illik faiz dərəcəsinin yuxarı həddindən artıq illik faiz dərəcəsi ilə qəbul edilmiş əmanətlər;

f) fiziki şəxslərin sahibkarlıq fəaliyyəti ilə əlaqədar açdığı bank hesablarındakı pul vəsaitləri;

g) fiziki şəxslərin Bankın vəkalətli idarəetməsində olan pul vəsaitləri.

**1.8.** Fond kompensasiyanı milli valyutada olan əmanət üzrə manatla, ABŞ dollarında olan əmanət üzrə ABŞ dollarında, AVRO-da olan əmanət üzrə isə AVRO-da Müştəriyə ödəyir. Əmanət ABŞ dolları və ya AVRO-da olmadıqda kompensasiya bu valyutaların biri ilə sığorta hadisəsinin baş verdiyi günə Mərkəzi Bankın müvafiq valyutalar üzrə müəyyən etdiyi rəsmi məzənnələr əsasında hesablanmış çapraz

məzənnə üzrə hesablanır və ödənilir. Fond əmanət üzrə faizləri sığorta hadisəsinin baş verdiyi günə qədər hesablanmış məbləğdə Müştəriyə ödəyir.

**1.9.** Müştərinin Bankda, o cümlədən Bankın yerli filiallarında və şöbələrində bir neçə əmanəti olduqda, yaxud həm milli, həm də xarici valyutada əmanətləri olduqda, onlar toplanır və bir əmanət kimi manatla kompensasiya olunur.

**1.10.** Sığorta hadisəsi baş verdiyi günə Müştərinin Bank qarşısında vaxtı çatmış öhdəliyi olduqda Əmanət üzrə kompensasiya hesablanmış faizlər də daxil olmaqla Müştərinin Bank qarşısında icra edilməyən öhdəliyinin hissəsi qorunan əmanətinin məbləğindən çıxılmaqla qalıq hissəsi üzrə ödənilir.

**1.11.** Bank Müştərinin yazılı və ya şifahi sorğularına cavab olaraq, Bankın sığorta sistemində iştirakı, qorunan əmanətlər və kompensasiyalar barədə Müştəriyə məlumat verir.

**1.12.** Müştəri aşağıda göstərilən ünvanda və ya əlaqə telefonları və elektron poçt vasitəsi ilə Fondla əlaqə saxlaya bilər: AZ1014, Bakı şəhəri, Bül-Bül prospekti 40 (IV mərtəbə), əlaqə tel.: (99412) 5966591, 5966592, 5966593; faks: (99412) 5966594; e-mail: adif@adif.az ; internet səhifəsi: www.adif.az

***Standart şərtlərə Əlavə № 2:***

## KARTLARDAN İSTİFADƏ QAYDALARI

1. Kartdan istifadə etməklə hesab üzrə əməliyyatların aparılması qaydası Müqavilə, həmçinin bank praktikasında tətbiq olunan işgüzar dövriyyə adətləri ilə müəyyən edilir.
2. Kartdan istifadə etməklə kart hesabı üzərində sərəncam vermək hüququ kart istifadəçisinə məxsusdur.
3. Kartdan istifadə etməklə aparılmış bütün əməliyyatlara görə Müştəri məsuliyyət daşıyır.
4. Kart ondan istifadə etməklə Müştəriyə Azərbaycanda və ondan kənarda VISA və Mastercard/Maestro loqotipini daşıyan ödəniş kartlarının qəbul edilməsi haqqında üzərində qeyd olan təsərrüfat subyektlərində nağdsız əməliyyatları (malların və xidmətlərin dəyərinin ödənilməsi), bankomatlarda və ya POS-terminallarda isə nağd əməliyyatları (nağd pulun çıxarılması) həyata keçirmək imkanı verir.
5. PIN-kod Müştərinin eyniləşdirilməsi məqsədilə ona və yaxud onun vəkil etdiyi şəxsə təqdim olunur. PIN-kod Müştərinin imzasının analoqudur və PIN-koddan istifadə etməklə kart üzrə aparılmış əməliyyatlar Müştəri tərəfindən aparılmış əməliyyat kimi qəbul edilir. Kartın və ya onun PIN-kodunun üçüncü şəxslərə verilməsi qadağandır.

6. PİN-kodu dəyişmək imkanı verilirsə, Müştəri "AccessBank" QSC-nın ("Bank") bankomatında onu dəyişdirə bilər. Bu zaman asan əldə oluna biləcək kombinasiyalardan (məs: doğum tarixi, telefon nömrəsinin son rəqəmləri və s.) istifadə edilməməlidir.
7. Kartın son istifadə tarixi onun üzərində qeyd olunan təqvim ilinin ayının son günü hesab olunur və həmin tarixdə Kartın fəaliyyəti avtomatik dayandırılır.
8. Kart Bankın mülkiyyətidir və istifadə müddəti bitdikdə Banka qaytarılmalıdır.
9. Kartın istifadə müddəti bitdikdə Müştərinin ərizəsinə əsasən Bank onun üçün yeni kart emissiya edir. Yeni kartın dəyəri Müştəri tərəfindən əvvəlcədən Banka ödənilməlidir.
10. Müştəri kartı və içində PİN-kod olan qapalı zərfi özü və yaxud səlahiyyətli nümayəndəsi vasitəsilə Bankın təqdim etdiyi müvafiq sənədlərə imza etməklə qəbul etməlidir.
11. PİN-kod gizli saxlanılmalı, POS-terminaldan istifadə zamanı PİN-kodu daxil edərkən digər şəxslərin görməməsi təmin edilməli, PİN kod olan zərf kart ilə bir yerdə saxlanılmamalı, on-line əməliyyatlar həyata keçirən zamanı PİN-kod daxil edilməməlidir.
12. Kart üçüncü şəxslərin istifadəsinə verilməməlidir.
13. Bankdan kartı alarkən onun arxa tərəfində imza zolağında Müştəri öz imzasını qeyd etməlidir. Həmin imzanın olmaması və ya onun qəbz üzərindəki imzaya uyğun olmaması kartın ödəniş üçün qəbulundan imtina üçün əsasdır.
14. Kartdan istifadə etməklə əməliyyatlar qəbz üzərində Müştərinin imzası və ya PİN-kodun daxil edilməsi ilə aparılır. Bu zaman Müştəri həmin sənəddə kartın nömrəsinin və əməliyyat tarixinin, əməliyyat məbləğinin və valyutanın düzgün qeyd olunmasını yoxlamalıdır.
15. Kart olmadan əməliyyatlar onun nömrəsi, son istifadə tarixi, CVV2 (CVC) kodu vasitəsilə aparılır.
16. Müştəri kartla aparılmış əməliyyatların qəbzlərinin 60 (altmış) gün ərzində saxlanılması təmin etməlidir. Mütəmadi olaraq, əldə olunan qəbz Bankın verdiyi kart hesabından çıxarış ilə tutuşdurulmalıdır. Uyğunsuzluq aşkar edildikdə Bank dərhal bu haqda məlumatlandırılmalıdır.
17. Kart hesabından çıxarışda göstərilmiş əməliyyatlar üzrə etirazı olduğu halda Müştəri əməliyyatın həyata keçirildiyi tarixdən 45 (qırx beş) təqvim günündən gec olmayaraq istinad etdiyi halları təsdiq edən sənədləri də əlavə etməklə yazılı şəkildə Banka müraciət etməlidir. Müştəri bunu etmədikdə həyata keçirilmiş əməliyyatlar Müştəri tərəfindən təsdiq olunmuş hesab edilir və sonradan həmin əməliyyatlar üzrə daxil olmuş iddialara baxılmır.
18. Müştərinin müraciətindən sonra 60 (altmış) iş günü ərzində mübahisəli əməliyyatların araşdırılması və araşdırmanın nəticəsi haqqında Bank ona məlumat təqdim edir.
19. Kartdan istifadə zamanı yaranan problemlərin həll edilməsi üçün kartın arxa tərəfində əks olunan əlaqə nömrələri ilə əlaqə saxlanılmalıdır. Bu məqsədlə həmin əlaqə telefonları yadda saxlanılmalıdır. Kart sahibi kartın itməsinin, oğurlanmasının və üçüncü şəxslər tərəfindən qanunsuz istifadə edilməsinin qarşısının alınması üçün bütün mümkün tədbirləri görməlidir.
20. Kart itirildikdə, oğurlandıqda və Müştərinin iradəsinə zidd olaraq digər vasitələrlə onun və ya kart istifadəçisinin sahibliyindən çıxdıqda Müştəri bu barədə dərhal (012) 4312202, *8893 telefon

nömrələri vasitəsilə Milli Kartın məlumat mərkəzini məlumatlandırmalıdır. Bundan sonra 10 (on) gün ərzində Müştəri Kartı Stop-listə daxil etdirmək üçün Banka bu barədə yazılı müraciət etməlidir.

**21.** İtirilmiş PİN-kod bərpa edilmir. PİN-kod itirildikdə Müştəri bu səbəbdən yeni kartın buraxılması üçün Banka yazılı müraciət etməlidir.

**22.** Müştəri Müqavilə üzrə hüquqlarının pozulmasını hesab etdiyi hallarda (012) 493-50-58 nömrəli telofon vasitəsilə Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasına müraciət edə bilər.

..............................

Anar Həsənov
"AccessBank" QSC-nin İdarə Heyətinin Sədri

Azərbaycan Respublikası "AccessBank" QSC • AccessBank •